# Rəcəb Tayyib Ərdoğan Azərbaycan Prezidentinə və xalqına güclü həmrəylik və dəstəyə görə türk millətinin daim minnətdar olacağını bəyan etdi

Prezident İlham Əliyevin Türkiyəyə işgüzar səfəri ölkələrimiz arasında əməkdaşlığın qarşılıqlı inam və etimada əsaslandığını bir daha təsdiq etdi. Azərbaycan Prezidentinin təklifi ilə Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının beşinci iclasının Bakıda deyil, Ankarada keçirilməsi iki ölkə arasında həmrəyliyin, dostluğun bir daha təcəssümü oldu. Xatırladaq ki, bir neçə gün əvvəl Ankaranın mərkəzində, Qızılayda mülki əhaliyə qarşı törədilən terror aktı çoxsaylı insan tələfatına səbəb olmuşdu. Türk xalqının belə bir ağır günündə Azərbaycan rəhbərliyi tərəfindən qardaş dövlətə dəstək göstərilməsi strateji tərəfdaş ölkələr arasında münasibətlərin yüksək səviyyəsindən xəbər verdi. Qeyd edək ki, səfər zamanı dövlət başçıları terrora qarşı mübarizədə birgə fəaliyyətin davamlılığının vacib olduğunu xüsusi vurğuladılar.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan arasında keçirilən görüşdə iki dövlət arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurlu inkişafından məmnunluq ifadə edildi. Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının beşinci iclasının əlaqələrimizin daha da dərinləşməsi işinə xidmət etdiyi vurğulandı. İclasda ölkələrimiz arasında həyata keçirilən enerji, nəqliyyat layihələrinin icrası, qarşılıqlı investisiya, turizm, humanitar və digər sahələrdə əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri barədə fikir mübadiləsi aparıldı.

Prezident İlham Əliyevin bu səfəri bir daha göstərdi ki, Türkiyənin regionda güvənməli həqiqi müttəfiqi məhz Azərbaycandır. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycan-Türkiyə dostluğu ilə bağlı fikirləri bunu bir daha təsdiq edir: "Biz bu gün Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının beşinci iclasını əslində Bakıda keçirməli idik. Ancaq sağ olsun qardaşım Əliyev, bu hadisə ilə əlaqədar dedi ki, biz gələk və Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının iclasını Bakıda deyil, təkrar olsa da, Ankarada keçirək. Mən bu səfəri, bu gün burada Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının iclasını həm bu hadisə ilə bağlı birlikdə gücümüzü, həmrəyliyimizi, həm də bütün terror hücumlarına qarşı birlikdə olduğumuzu milli və beynəlxalq miqyasda göstərmək baxımından çox yüksək qiymətləndirirəm. Mən Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının bu iclasının Ankaramızda keçirilməsini çox təqdirəlayiq hesab edirəm və mərhum Heydər Əliyevin dediyi kimi, "Bir millət, iki dövlət" anlayışının daha bir təzahürü olduğunu bildirirəm. Qardaşım İlham Əliyev Azərbaycanın millətimizin dar günündə dostu olduğunu bir daha göstərdi. Buna görə ona dərindən təşəkkürümü bildirirəm".

Birmənalı demək olar ki, bu gün bölgədə Türkiyə və Azərbaycanın iştirakı olmadan hər hansı layihəni gerçəkləşdirmək mümkün deyil. Cənubi Qafqaz kimi mürəkkəb geosiyasi məkanda təhlükəsizlik problemlərinin birgə həlli, sülh, sabitlik və iqtisadi inkişafın təmin olunması zərurəti iki türkdilli dövləti daha da sıx birləşməyə sövq edir. Azərbaycanın regiondakı rolunun artması, eyni zamanda Türkiyənin dünya iqtisadiyyatında mühüm mövqelərə çıxması iki dövlət arasında iqtisadi əlaqələrin daha da genişləndirilməsini zəruri edir. Strateji müttəfiq ölkələr müxtəlif beynəlxalq təşkilatlarda bir-birinin mövqeyini dəstəkləyir, ortaq maraqlardan çıxış edirlər. 2005-ci ilin iyulundan başlayaraq Azərbaycanla Türkiyə münasibətlərində "ikinci nəfəs" açılmışdır. Azərbaycan Prezidenti İlham Əliyev Şimali Kiprlə iqtisadi əlaqələrin qurulmasına siyasi razılıq verməklə iki ölkə arasında münasibətlərdə yeni mərhələnin əsasını qoymuşdur. Bu, Türkiyə üçün əsl hədiyyə, Kipr türkləri üçün iqtisadi diplomatiya sahəsində mühüm nailiyyət olmuşdur. Azərbaycan bir tərəfdən BMT-nin Baş katibinin çağırışına uyğun hərəkət edərək beynəlxalq hüquqa sadiqliyini nümayiş etdirmiş, o biri tərəfdən Türkiyə qarşısında qardaşlıq borcunu yerinə yetirmişdir. Rəsmi Bakı bu məsələyə BMT mövqeyindən yanaşmaqla münaqişələrin həllində də məhz BMT Təhlükəsizlik Şurasının qətnamələrinə və beynəlxalq hüquqa istinad edilməsinin zəruriliyini dolayısı ilə önə çəkmişdir. Bu həm Şimali Kiprin, həm də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində Azərbaycanın xeyrinə olan məqam idi. Rəsmi Bakı qondarma erməni soyqırımı məsələsində Türkiyənin haqlı mövqeyini daim müdafiə edir. Dövlət başçısı İlham Əliyev dəfələrlə bəyan edib ki, Türkiyə və Azərbaycanın birgə fəaliyyəti, müdafiədən fəal hücum mövqeyinə keçməsi ermənilərin saxta iddialarla dünya ictimaiyyətini çaşdırmaq cəhdlərinin qarşısını alır. Zaman keçdikcə bədnam qonşularımızın "soyqırımı" iddialarının məkrli və qərəzli kampaniya olduğunu daha çox dövlət başa düşür.

Rəsmi Ankara bütün beynəlxalq toplantılarda Azərbaycanın haqlı mövqeyini müdafiə edərək Ermənistanın işğal etdiyi tarixi Azərbaycan torpaqlarını dərhal və qeyd-şərtsiz azad etməsi tələbini irəli sürür. Əminliklə demək olar ki, bu istiqamətdə həyata keçirilən siyasət müsbət səmərəsini verəcək, türkdilli ölkələrin, xüsusən də Azərbaycanla Türkiyənin sıx əməkdaşlığı regionda yeni güc mərkəzinin formalaşması ilə nəticələnəcək. Azərbaycan və Türkiyə terrordan əziyyət çəkən ölkələr olaraq terror təşkilatlarına qarşı mübarizədə də birlik nümayiş etdirirlər.

Prezident İlham Əliyev Azərbaycanın Türkiyəyə ən yaxın müttəfiq kimi daim onun yanında olacağını bildirib: "Bu dəhşətli terror aktını qətiyyətlə pisləyirik, qınayırıq və bir daha deyirik ki, biz bu gün türk xalqının yanındayıq. Bizim birliyimiz əbədidir, sarsılmazdır. Yaxşı günlərdə də, ağır günlərdə də biz daim bir-birimizin yanındayıq. Biz Azərbaycanda tam əminik ki, Türkiyə xalqına və dövlətinə qarşı törədilmiş terror aktlarının heç bir nəticəsi olmayacaq. Bu, Türkiyə dövlətini sarsıda, türk xalqının iradəsinə təsir edə və Türkiyəni haqq yolundan döndərə bilməz. İyirmi beş ildir ki, Türkiyə və Azərbaycan birlik, həmrəylik göstərir. İyirmi beş il bundan əvvəl Azərbaycan dövlət müstəqilliyini bərpa etdi və bizi ilk tanıyan dövlət Türkiyə olmuşdur. Biz bunu heç vaxt unutmayacağıq. Bu, əslində, başqa ölkələrə də bir tövsiyə idi və ondan sonra Azərbaycanı müstəqil dövlət kimi tanıma prosesi sürətlə getməyə başlamışdır. Bu illər ərzində biz bütün sahələrdə uğurlu əməkdaşlıq edirik. Bu gün Türkiyə və Azərbaycan dünya miqyasında bir-birinə ən yaxın olan ölkələrdir. Bizim əlaqələrimizin təməlində xalqlarımızın birliyi, qardaşlığıdır. Bu, əsas məsələdir və biz dostluğumuzun, qardaşlığımızın möhtəşəm binasını bu təməl üzərində inşa edirik".

Ankarada Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının beşinci iclası başa çatdıqdan sonra prezidentlər İlham Əliyevin və Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Azərbaycan-Türkiyə sənədlərinin imzalanması mərasimi olub. Bu sırada "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının beşinci iclasının Protokolu", "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında hərbi/mülki heyətin sosial və mədəni məqsədli mübadiləsinə dair Protokol", "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında diplomatik nümayəndəlik və konsulluqların əməkdaşlarının ailə üzvlərinin haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmaları haqqında Saziş", "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi ilə Türkiyə Respublikasının Daxili İşlər Nazirliyi arasında məhkəmə ekspertizası sahəsində əməkdaşlıq haqqında Saziş", "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında sürücülük vəsiqələrinin qarşılıqlı tanınması və dəyişdirilməsi haqqında Saziş" və "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında texniki əməkdaşlıq haqqında Protokol"u misal göstərmək olar. Ən müxtəlif sahələrə dair imzalanmış sənədlər ölkələrimiz arasında əməkdaşlığın daha da inkişafına böyük imkanlar açacaq.

Azərbaycanın Türkiyə ilə enerji sahəsində əməkdaşlığı daha da genişlənib. Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin, Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin istifadəyə verilməsi, Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin inşası Azərbaycan və Türkiyənin sosial-iqtisadi inkişafında, regional təhlükəsizliyin möhkəmlənməsində, qarşılıqlı əlaqələrin güclənməsində, eləcə də ölkələrimizin dünya birliyinə hərtərəfli inteqrasiyasında yeni səhifə açmışdır. "Cənub qaz dəhlizi" layihəsinin həyata keçirilməsi üçün TANAP layihəsi üzrə səmərəli əməkdaşlığımız var. Hazırkı dövrdə "Cənub qaz dəhlizi"nin əhəmiyyəti daha da artıb. Bu dəhlizin onurğa sütununu isə TANAP təşkil edir. Xatırladaq ki, "Cənub qaz dəhlizi" və "Şahdəniz" yatağının işlənilməsi hazırda Avropanın ən böyük infrastruktur layihəsidir.

Bir sözlə, Prezident İlham Əliyevin qardaş və dost ölkəyə budəfəki səfəri bütün sahələrdə əlaqələrin uğurlu inkişafına daha böyük imkanlar yaradacaq, əməkdaşlığın dərinləşdirilməsinə və xalqlarımız arasında tarixən mövcud olmuş əlaqələrin genişlənməsinə yeni töhfələr verəcək.

***Elnur HACALIYEV,***
***"Azərbaycan"***